**«Razılaşdırılmışdır»**

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisi

N. Xəlilov

**«12» noyabr 2015-ci il**

**«Təsdiq edirəm»**

«Atəşgah» Sığorta Şirkəti ASC-nin İdarə heyətinin sədri

T.A. Səfərov

**«21» oktyabr 2015-ci il**

# Heyvanların sığortası Qaydaları

**Bakı 2015**

**Sığorta sinfi**
Bu Qaydalar əsasında həyata keçirilən sığorta, sığorta obyektinə görə əmlak sığortası sinifinə aiddir.

**Ümümi anlayışlar**

Əgər Qaydaların məzmununda başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

Sığortalı - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi.

Sığortaçı - Azərbaycan Respublikasının qanunvericiliyi əsasında fəaliyyət göstərən və Azərbaycan Respublikasında sığorta fəaliyyətinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanından xüsusi razılıq almış «Atəşgah» Sığorta şirkəti ASC;

Faydalanan şəxslər - sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs

Sığorta hadisəsi - qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

Sığorta məbləği – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

Sığorta tələbi - sığorta hadisəsi baş verdikdə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti;

Sığorta ödənişi – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

Sığorta predmeti – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu əmlak (Heyvanlar)

Sığorta marağı - Sığorta marağı sığorta hadisəsinin baş verəcəyi təqdirdə sığortalının maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir.

Sığorta haqqı – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

Sığorta riski və ya risk - sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;

Sığorta müqaviləsi - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

Sığorta şəhadətnaməsi - sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

Sığortanın müddəti – sığorta risklərinin sığortalanmış hesab olunduğu müddət;

Azadolma məbləği – Azadolma məbləği, sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur

Şərtli azadolma məbləği - məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən cox olduqda zərər məbləğindən azadolma məbləği cıxılmır.

Şərtsiz azadolma məbləği - nəzərdə tutulduqda həmin məbləğ hər bir halda zərər məbləğindən cıxılır.

Gözləmə müddəti **-** gözləmə müddəti, sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir.

Şərtli gözləmə muddəti - muəyyən edildikdə sığorta hadisəsinin nəticələrinin həmin muddətə bərabər və ya ondan artıq muddətdə davam etməsi şərti ilə sığorta tələbi və ya sığorta odənişi sığorta hadisəsinin baş verməsindən kecən həmin muddət qədər vaxt ərzində yaranan itkilərə də şamil edilir.

Sığorta muqaviləsində şərtsiz gözləmə muddəti - muəyyən edildikdə sığorta tələbi və ya sığorta odənişi sığorta hadisəsinin baş verməsindən kecən həmin muddət qədər vaxt ərzində yaranan itkilərə şamil edilmir.

Sığortanın ərazisi – sığorta təminatının qüvvədə olduğu ərazi hüdudları.

**1. Sığorta predmeti.**
Bu Qaydalara əsasən Sığortalının əmlak mənafelərinin aid olduğu heyvanlar sığortanın predmeti hesab olunur.
1.1. Bu sığorta qaydaları ilə aşağıda göstərilən heyvanlara təminat verilir:
1.1.1. Sığorta oluna bilən heyvanlar və onların yaş hədləri:
1.1.1.1. 6 aylığından 12 yaşına qədər (12 yaş da daxil olmaqla) at, uzunqulaq və qatırlar;
1.1.1.2. 6 aylığından 9 yaşına qədər (9 yaş da daxil olmaqla) inəklər, öküzlər;
1.1.1.3. 6 aylığından 14 yaşına qədər (14 yaşda daxil olmaqla) camışlar;
1.1.1.4. 6 aylığından 4 yaşına qədər (4 yaş da daxil olmaqla) yerli və merenos qoyunlar, anqor keçisi;
1.1.1.5. 6 aylığından 3 yaşına qədər (3 yaş da daxil olmaqla) donuzlar;
1.1.1.6. 6 aylığından 8 yaşına qədər (8 yaş da daxil olmaqla) ev, ov, gözətçi və çoban itləri.

**2. Sığorta məbləğlərinin muəyyən edilməsi qaydası**
2.1. Sığorta məbləği sığortaçı ilə sığortalı arasında razılaşdırılaraq müəyyənləşdirilir və sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.

**3. Sığorta riskləri**:
3.1. Sığorta təminatına aşağıdakı hallar nəticəsində dəyən ziyan və zərərlər daxil edilir:
3.1.1. Bütün növ adi və keçici xəstəliklər, boğaz olma, doğum, axtalama və ya cərrahiyyə əməliyyatı aparılması;
3.1.2. Hər cür qəzalar, vəhşi heyvanların hücumu, kənar şəxslərin qəsdən zəhərləməsi, yaralaması və ya şikəst etməsi;
3.1. 3. Şaxtadan donma, məftil, mismar, daş və digər bu kimi bərk və dəlici cisimlər udması və ya dərmanlanmış sahədə otlaması;
3.1.4. Qasırğa, ildırım, zəlzələ, su basqını, torpaq çökməsi və ya sürüşməsi;
3.1. 5. Yanğın və ya partlayış nəticəsində, heyvanların məcburən kəsdirilməsi də daxil olmaqla, tələf olmasına görə sığortalıya dəyən həqiqi zərərlər.
3.2. Sığorta təminatının genişlədirilməsi.
Sığortaçı əlavə sığorta haqqı müqabilində aşağıda sadalanan riskləri təminata daxil edə bilər:
3.2.1. Dəniz, hava və avtomobil yollarında mühərrikli və ya mühərriksiz nəqliyyat vasitələrilə həyata keçirilən daşımalar zamanı baş verən tələf olma və ya zədələnmə;
3.2.2. Oğurlanma, itmə;
3.2.3. Tətil, lokaut, xalq hərəkatları və bunlarla əlaqədar hərbi və inzibati tədbirlər nəticəsində dəyən ziyan və zərərlər.

**4. İstisnalar (Sığorta təminatından məhdudiyyətlər).**
4.1. Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa aşağdakılar nəticəsində baş verən zərər və ziyan sığorta təminatına daxil deyil:
4.1.1. Manqo, saqqo, at vəbası, heyvan vəbası, vərəm, bruselyoz, keçici ciyər ağrısı xəstəlikləri;
4.1.2. Bütün növ yarış, oyun, sirkdə iştrak və ya güc sınaqları ;
4.1.3. Müharibə, hər cür hərbi hərəkətlər, istila, xarici düşmən hərəkətləri, (müharibə elan edilib-edilməməsindən asılı olmayaraq), vətəndaş müharibəsi, qiyam, üsyan və bunlarla əlaqədar həyata keçirilən inzibati və hərbi tədbirlərin nəticəsi;
4.1.4. Nüvə partlayışı radiasiya, radioaktiv çirklənmə, və bunlarla əlaqədar həyata keçirilən hərbi və inzibati tədbirlərin nəticəsi;
4.1.5. Səlahiyyətli orqanlarının sərəncamı ilə heyvanların məhvi, mənimsənilməsi və ya müsadirə edilməsi;

**5. Sığortanın ərazisi**

5.1 Bu sığorta, sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

5.2 Əgər sığorta müqaviləsində sığortanın ərazisi göstərilmişdirsə, yalnız həmin ərazidə baş verən sığorta hadisələrinə sığorta təminatı verilir.

5.3 Sığortanın ərazisi, Sığortaçının bu barədə qabaqcadan xəbərdar edilməsi, yazılı surətdə razılığının alınması və əlavə sığorta haqqının ödənilməsi şərti ilə genişləndirilə bilər.

**6. Sığorta muqaviləsinin bağlanması, həmcinin ona əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası:**

6.1. Sığorta müqaviləsinin bağlanması:

6.1.1. Sığorta müqaviləsinin bağlanması faktı sığorta qaydaları əlavə edilməklə, Sığortalıya verilən sığorta şəhadətnaməsi ilə təsdiq edilir.

6.1.2. Sığortaçının tələb etdiyi halda sığorta müqaviləsinin bağlanması üçün Sığortalı müvafiq ərizə formasını doldurur.

6.1.3. Sığorta müqaviləsinin qüvvəyə minmə və sona çatma anı sığorta şəhadətnaməsi(müqaviləsi)ilə müəyyən edilir.

6.1.4. Sığorta yalnız sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrini əhatə edir.

6.1.5. Sığortaçının tələb etdiyi halda müqavilə bağlanan zaman sığortalı heyvanların sağlamlığı ilə əlaqədar ərazi üzrə baytar həkimindən öz vəsaiti hesabına arayış (heyvanın yaşı göstərilməklə) alaraq sığortaçıya təqdim edir.

6.1.6. Sığortalı heyvanlar, sığortaçının məsləhət bildiyi formada (damğa vurulması, qulağına halqa taxılması və s.) işarələnir. Işarələnməsi mümkün olmayan heyvanların nəzərə çarpan və dəyişməz əlamətləri sığorta şəhadətnaməsində qeyd olunur.

6.1.7. Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi 1(bir) illik bağlanılır.

6.2 Sığorta müqaviləsinə aşağıdaki hallarda əlavə və dəyişiklik edilir:

6.2.1 Sığorta müqaviləsinin şərtləri əsaslanan qanunlar dəyişdikdə;

6.2.2 Azərbaycan Respublikasının Ali Məhkəməsinin, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin bilavasitə sığorta müqaviləsinə aidiyyəti olan qərarları qəbul edildikdə;

6.2.3 Sığorta şərtləri etibarsız sayıldıqda.

6.2.4 Tərəflər öz istəyi ilə(hər iki tərəfin razılıq əldə etməsi şərti ilə), həmçinin sığorta sahəsini tənzimləyən qanunvericilik aktlarında nəzərdə tutulmuş digər hallarda da sığorta müqaviləsinə əlavə və dəyişiklik edə bilərlər.

6.2.5 Sığortaçı sığorta riskinin artmasına təsir edən hallar barədə məlumatı əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:

- 6.2.5.1 sığorta müqaviləsinin şərtlərinin və müddəalarının dəyişməsini tələb etmək,
- 6.2.5.2 əlavə sığorta haqqının ödənilməsini tələb etmək və ya belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsini ləğv etmək.

6.2.6 Sığorta müqaviləsinə edilən bütün dəyişiklik və əlavələr mütləq yazılı şəkildə edilməli və bu Qaydaların müddəalarında başqa hal nəzərdə tutulmamışdırsa, iki tərəfdən (sığortalı, sığortaçı) imzalanmalıdır və möhürlənməlidir.

6.3. Sığorta müqaviləsinə xitam verilməsi:

6.3.1 Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

- 6.3.1.1. Müqavilənin müddəti bitdikdə;
- 6.3.1.2. Sığortaçı müqavilə üzrə Sığortalı qarşısında öhdəliklərini tam həcmdə icra etdikdə;
- 6.3.1.3. Sığortalı sığorta haqqlarını müqavilə ilə müəyyən olunmuş müddətdə ödəmədikdə;
- 6.3.1.4. Sığortaçı, Azərbaycan Respublikasının qanunvericilik aktları əsasında ləğv edildikdə;
- 6.3.1.5. Sığorta müqaviləsinin etibarsız hesab olunması haqqında məhkəmə tərəfindən qərar qəbul edildkdə;
- 6.3.1.6. Sığorta marağı artıq mövcud olmadıqda;
- 6.3.1.7. Sığorta predmeti artıq mövcud olmadıqda.
- 6.3.1.8. Azərbaycan Respublikasinin qanunvericiliyi ilə nəzərdə tutulan digər hallarda.
- 6.3.1.9. Sığorta müqaviləsinə Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilə bilər.
- 6.3.1.10. sığorta muqaviləsinə sığortalının və ya sığortacının tələbi ilə vaxtından əvvəl xitamn verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gun əvvəl (sığorta muqaviləsi beş ildən cox muddətə bağlanmış olduqda 60 gun, 3 aydan az muddətə bağlanmış olduqda isə 5 iş gunu əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş gondərməlidir.

6.3.1.11. Uzun müddətli sığortalar zamanı, sığortalanmış heyvan sığorta olunduğu müddət ərzində bu qaydaların 1-ci maddəsində göstərilən maksimum yaş həddinə çatarsa, həmin heyvana məxsus təminat ləğv olunur.
6.3.1.12. Əhəmiyyətli hal haqqında ərizə formasında yanlış məlumatlar olduğu sonradan aşkarlanarsa, Sığortaçı müqaviləyə xitam verə bilər.

**7. Sığorta haqqı**
7.1. Sığorta haqqı sığorta tariflərinə əsasən hesablanır.
7.2. Sığorta haqqının odənilmə qaydası sığorta şəhadatnaməsi(müqaviləsi)ilə müəyyən edilir.
7.3. Sığorta haqqının ödənildiyi gün, pul vəsaitinin Sığortaçının bank hesabına və ya kassasına daxil olduğu gün hesab olunur.
7.4. Sığorta haqqı və ya onun növbəti hissəsi sığorta müqaviləsində nəzərdə tutulmuş müddətədək ödənilmədikdə və ya sığorta müqaviləsində nəzərdə tutulduğundan daha az məbləğdə ödənildikdə:
7.4.1 Bu halda sığortaçı onun ödənilməsi üçün bu qaydaların 7.4.2.-ci maddəsinin tələbini nəzərə alaraq, yazılı surətdə 15 (on beş) günədək əlavə müddət müəyyən edə bilər;
7.4.2. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 (bir) aydan gec olmayaraq ödənilməlidir.
7.5. Sığortalı sığorta haqqını və ya onun növbəti hissəsini sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə ödəmədikdə, Sığortaçı sığorta müqaviləsinə xitam verə bilər və ya birtərəfli qaydada müqavilənin icrasından imtina edə bilər.

8. **Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri**
8.1. Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır.
8.2. Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla, müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır.
8.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.
8.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu bəndin 7.1-ci və 7.2-ci yarımbəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.
8.5. Sığorta müqaviləsi məhkəmə qərarı əsasında (sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa) xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını, bu bəndin 8.3-cü və 8.4-cü yarımbəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

**9. Tərəflərin hüquq və vəzifələri:**
**9.1. Sığortalı:**
9.1.1 sığorta haqqını vaxtında ödəməli;
9.1.2 digər sığorta müqavilələri barədə sığortaçıya məlumat verməli;
9.1.3 Sığortaçının tələbi olduğda,heyvanların sağlamlığı ilə əlaqədar baytar həkimindən öz vəsaiti hesabına arayış alıb sığortaçıya təqdim etməli;
9.1.4 sığorta hadisəsi baş verdikdə, bu barədə Qaydaların 9.1-ci bəndinin tələblərini nəzərə alaraq sığortaçını xəbərdar etməli;
9.1.5 sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu forması sığorta müqaviləsi bağlandığı zaman Sığortaçı tərəfindən Sığortalıya təqdim olunur. Sığortalı öz növbəsində sorğu formasındakı sualları dürüst və düzgün şəkildə cavablandırmalı və sığorta müqaviləsi qüvvədə olan müddətdə riskin dərəcəsi dəyişilərsə bu barədə sığortaçıya məlumat verməli;
9.1.6 Sığorta hadisəsi baş verdikdə sığorta ödənişini vaxtında ödənilməsini tələb etmək.
9.1.7 Sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu forması sığorta müqaviləsi bağlandığı zaman Sığortaçı tərəfindən Sığortalıya təqdim olunur. Sığorta müqaviləsinin qüvvədə olduğu

müddət ərzində, Sığortalı, sığorta müqaviləsi bağlanan zaman Sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən və ona məlum olan bütün digər hallar barədə Sığortaçıya dərhal məlumat verməlidir.

9.1.8 Mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və vəzifələr.

**9.2. Sığortaçı:**

9.2.1 sığortalını sığorta qaydaları ilə tanış etməli;

9.2.2 sığorta ödənişini bu Qaydaların 11.1-ci bəndində müəyyən edilmiş müddətdə verməli;

9.2.3 sığortalı barədə məlumatı, o cümlədən kommersiya sirri olan məlumatı yaymamalıdır;

9.2.4 istədiyi vaxt öz nümayəndələri və ya təyin edəcəyi baytar həkimləri vasitəsilə sığortalı heyvanların sağlamlığını və saxlanma şəraitini vəziyyətini yoxlamaq hüququna malikdir. Sığortalının tövləni baxımsız və natəmiz saxlaması, heyvanlarla pis davranması, onlara əziyyət verməsi və pis qulluq etməsi, lazımi qaydada yemləməməsi, həddindən artıq işlətməsi, sığorta şəhadətnaməsində göstərilməyən məqsədlər üçün istifadə etməsi və digər bu kimi nöqsanlı hərəkətləri sübut edilərsə, sığortaçı 15 (on beş) gün müddətində müqaviləni ləğv edə bilər və ya baytarlıq qaydalarında göstərilən tələblərini müəyyən bir vaxt ərzində yerinə yetirilməsini tövsiyyə edə bilər. Sığortalı bu tövsiyyələri qəbul etməzsə və ya vaxtında yerinə yetirməzsə, sığortaçı yenə də 15 (on beş) gün müddətində ləğv etmə hüququndan istifadə edə bilər.

9.2.5 Sığorta hadisəsi ilə bağlı zəruri sənədləri Sığortalıdan tələb etmək;

9.2.6 Mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və vəzifələr.

**10. Sığorta hadisəsi baş verdikdə sığortalının vəzifələri və sığortaçı tərəfindən nəzarət**

10.1. Sığorta hadisəsinin baş verməsini Sığortalı dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə yazılı qaydada bildirir.

10.2. Sığorta olunmuş heyvanlar xəstələndiyi və ya qəzaya düşdüyü hallarda, əlaqədar xərcləri özü ödəməklə baytar həkiminə müraciət etməli və onun məsləhət bildiyi tədbirləri həyata keçirməlidir;

10.3. Tələf olan, məhv edilən və ya məcburi kəsdirilən sığortal olunan heyvanların tələf olma səbəbi haqqında sığortaçının təyin edəcəyi baytar həkimindən, əlaqədar xərclərin sığortaçı tərəfindən ödənilməsi şərtilə rəsmi arayış almalıdır;

10.4. Baytar həkiminə tələf olmanın baş vermə səbəbinin aydınlaşdırılmasında kömək etməli və lazım olduqda müvafiq tədbirləri həyata keçirməlidir.

10.5. Sığorta olunan heyvanlarda yoluxucu xəstəlik əlamətləri aşkar edildikdə xəstə heyvanlarla sağlam heyvanları bir-birindən ayırmağa, xəstəlik haqqında məlumat verməyə, baytarlıq qaydalarına əsasən əlaqədar orqanlar tərəfindən məsləhət bilinən tədbirləri həyata keçirməyə, imkanı daxilində onlara yaxşı baxmağa, sığortaçının bu qaydaların 8.2.4-ci bəndinə uyğun olaraq həyata keçirdiyi yoxlamaların nəticəsinə əsasən sığortaçinın vacib hesab etdiyi tədbirlərin icrasına görə məsuliyyət daşıyır.

10.6. Bu sığorta ilə əhatə olunmasından asılı olmayaraq, Sığortalı artıq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətin azaldılması və gələcəkdə baş verə biləcək belə halların qarşısının alınması məqsədi ilə bütün ağlabatan və zəruri tədbirləri görməyə borcludur.

10.7. Sığortalının belə tədbirləri həyata keçirməməsi ilə əlaqədar birbaşa və ya dolayı nəticəsi olaraq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətə münasibətdə sığorta təminatı verilmir.

10.8. Belə tədbirlərin görülməsi zamanı Sığortalı Sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir.

10.9. Zərərlərin qarşısını almaq və ya həcmini azaltmaq üçün Sığortalı mümkün tədbirləri görmədikdə belə tədbirlərin görülməməsi nəticəsində zərər məbləğində baş verən artım Sığortaçı tərəfindən ödənilməyə bilər.

10.10. Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar Sığortalının bütün hərəkətləri üzərində nəzarət etməli və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır.

10.11. Sığortalı Sığortaçının tələbi ilə ona imkan dairəsində kömək etməlidir. Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda Sığortaçı öz hesabına Sığortalının maraqlarını təmsil və müdafiə etmək hüququna malikdir. Sığortalı Sığortaçının ilkin razılığı olmadan onun məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı bir hərəkət edə, saziş bağlaya və ya vəd verə bilməz.

**11. Zərərin qiymətləndirilməsi**

11.1. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını sığortalının və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir.

11.2. Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə, zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert tərəfindən aparılır.

11.3. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**12. Sığorta odənişinin həyata keçirilməsi qaydası və şərtləri**

12.1. Sığortaçı bu Qaydaların 12.4-ci maddəsində qeyd olunan sənədlərin sonuncusunu aldıqdan sonra (sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa) 15 (on beş) iş günü müddətində sığorta ödənişini həyata keçirir və ya yazılı şəkildə əsaslandırmaqla ödənişdən imtina edir.

12.2. Sığorta müqaviləsində nəzərdə tutulmuş azadolma məbləğinin şərtli və ya şərtsiz olması müəyyənləşdirilməmişdirsə, həmin müqavilə üzrə şərtsiz azadolma məbləği tətbiq olunur.

12.3. Sığortanmış heyvanlar tələf olduğu, məhv edildiyi və ya məcburi kəsdirildiyi zaman onun ətindən, dərisindən və digər hissələrindən istifadə edilə bilinəcəyi hallarda həmin hissələrin dəyəri və heyvan doğum zamanı tələf olarsa, xilas edilən balanın dəyəri sovtaj (istifadəyə yararlı hissə) kimi qəbul edilir.

12-4-ci yarımbəndində göstərilən sənədlər sığortaçıya təqdim edildikdən sonra ən geci 15 gün müddətində sığortalıya ödənilir.

12.4 Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır:

12.4.1 sığortalının və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi (ərizə, müraciət);

12.4.2 sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq, hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənədlər;

12.4.3 dəymiş zərərin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədlər;. sığorta hadisəsinin baş verməsini təsdiq edən digər zəruri sənədlər.

12.4.4 Müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, bu minimal zəruri olan sənədlərin toplusudur. Sığortaçı zərurət yarandıqda sığortalıdan sığorta hadisəsinin baş verməsi səbəblərini və faktını, həmçinin dəyən zərərin həcminin müəyyən edilməsi üçün zəruri olan digər sənədlərin təqdim edilməsini tələb etməyə haqlıdır.

**13. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları.**

13.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

13.4.1 sığorta hadisəsi barəsində məlumatın sığortaçıya vaxtında verilməməsi nəticəsində sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda,

13.4.2 sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

13.4.3 baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

13.4.4 sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 (on beş) gün sonra, bu qaydaların 6.5.1-ci maddəsində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 (üç) gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;

13.4.5 müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda, hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

13.4.6 sığortalı və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;

13.4.7 Sığortalı (sığorta olunan) tərəfindən sığorta predmetinin lazımi qaydada saxlanılması üzrə qanunvericilik və digər normativ sənədlərin tələblərinin(bağlanmış lizinq müqaviləsində saxlanma ilə əlaqəli şərtlər daxil olmaqla)pozulması,habelə bununla əlaqədar müvafiq orqanların göstərişlərinə əməl edilməməsi nəticəsində bu qaydaların 4-cü bəndində nəzərdə tutulmuş zərərlərin baş verməsi;

13.4.8 Sığorta sahəsində mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

**14. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti.**

14.1. Tərəflər bu Qaydalara əsasən bağlanılmış sığorta müqaviləsinin icrası ilə bağlı biri-birinə vurduqları zərərlərə görə qanunvericilikdə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

**15. Mübahisələrin həlli qaydası**

15.1. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə həll edilir, tərəflər arasında razılığ əldə olunmadığı təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələrə müraciət ediləcəkdir.

**16. Sığorta ödənişindən sığorta haqqının tutulması**

16.1. Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

**17. Sığorta məbləğinin sığorta ödənişinə uyğun olaraq azalması**

17.1. Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur. Sığorta qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik etmək vacib deyil.

**18. Subroqasiya hüququ**

18.1.1. Subroqasiya hüququ sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.

18.1.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

18.1.3. Faydalanan şəxs sığorta ödənişini aldıqda, subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

18.1.4. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə, sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

18.1.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən, dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

**19. Sığorta tarifi və onun iqtisadi əsaslandırılması**

Tarif dərəcələri əsaslandırılarkən, əvvəlcə netto-dərəcələr hesablanır. Netto dərəcələrin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1) Sığorta hadisəsinin baş vermə ehtimalı (q) - 0,04;
2) Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So) -2300 manat;
3) Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö) - 1600 manat;
4) Bağlanılacaq sığorta müqaviləsinin sayı(n)-300.

Tn, Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni, onun əsas hissəsini və risk öhdəliyini işarə edək. Netto-dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

$$Tə=100qSö/So=100*0,05*1600/2300=2.78 \text{ manat}$$

Risk öhdəliyini hesablamaq üçün təminat ehtimalını 0,98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal a=2 olur. Risk öhdəliyi aşağıdakı düsturla hesablanır:

$$Tr=1.2*Tə*a*((1-q)/(nq))^{1/2} =1.2*2.78*2*((1-0,04)/(300*0,04))^{1/2} = 1.89 \text{ manat}$$

$$Tn=Tr+Tə=2.78+1.89=4.67$$

Tarif dərəcəsinin strukturu: netto-dərəcə - 65%, yüklənmə -35 %.
Brutto-dərəcəni Tb ilə işarə edək. Onda bruto-dərəcənin hesablanması düsturuna əsasən:

$$Tb=Tn/(1-f)=4.67/(1-0,35)=7.19 \text{ manat.}$$

Tarif dərəcəsi sığorta predmetinin fiziki xüsusiyyətləri, istismar şəraitləri, sığorta ərazisi, iqlim və s. amillərdən asılı olaraq diferensiallaşdırılır. Ona görə də yekun tarif dərəcəsi, 3%-11% aralığında dəyişir.